# Fransanın Azərbaycan əleyhinə bütün cəhdləri iflasa uğrayıb

**"Fevralın 21-də Fransa Prezidenti Emmanuel Makronun Parisdə Ermənistanın baş naziri ilə birgə keçirdikləri mətbuat konfransında Azərbaycan əleyhinə, erməniləri birtərəfli qaydada müdafiə edən iddialar səsləndirməsi tamamilə əsassızdır. Fransanın heç bir zorakılıq tətbiq olunmadan Azərbaycan ərazilərini tərk etmiş ermənilərin hüquq və təhlükəsizliyindən danışmasının heç bir əsası yoxdur və bununla hansısa nəticəni əldə etməyəcək".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdən sonra Paşinyanın Fransaya gedəcəyi məlum idi: "Paşinyan Münxen səfərindən dərhal sonra Parisə gedərək ağası Makrona keçirilmiş görüşlərlə bağlı hesabat verməli idi. Makronun Paşinyanı yanına çağırmasının elə əsas məqsədi də Münxen görüşü ilə bağlı onun hesabatını dinləyib, yeni təlimatlar vermək idi. Görünür, Makron Azərbaycanla Ermənistan arasında baş tutan Münxen görüşündə vasitəçi ola bilmədiyinə görə ciddi narahatdır".

Deputat qeyd edib ki, Almaniyanın Federal Kansleri Qlaf Şoltsun təşəbbüsü və xahişi ilə Azərbaycanla Ermənistan arasında Münxendə baş tutan ikitərəfli görüşdə tərəflər danışıqların davam etdirilməsi üçün növbəti görüşlərin keçirilməsini də razılaşdırıblar: "Ona görə də Makron əl-ayağa düşüb, növbəti görüşlərdə Ermənistanın özünü necə aparmalı olduğuna dair tapşırıqlarını verib. Otuz ilə yaxın müddətdə Ermənistanın təcavüzkar siyasətinə və Azərbaycan ərazilərinin işğalına bircə dəfə də olsun qarşı çıxmayan Fransanın indi əl-ayağa düşməsi bu ölkənin məkrli niyyətini ortaya qoyur. Açıq-aydın görünür ki, Parisin məqsədi regionda sabitliyin və sülhün bərpasına nail olmaqdır. Makron məhz bu yolla Ermənistanda möhkəmlənməyə çalışır".

Azər Badamov qeyd edib ki, Makron bu məsələdə İrəvandan sui-istifadə etmək niyyəti güdür: "Ona görə də Azərbaycan-Ermənistan sərhədində 5 aya yaxın davam edən sabitliyi pozan Ermənistana heç nə demir, əksinə, onu qızışdırmağa çalışır. Makron elə hesab edir ki, Azərbaycan Ermənistanın təxribatlarını cavablandırarkən Fransayla məsləhətləşməlidir. Bu, gülməli və məntiqsizdir. Fransa bilməlidir ki, Azərbaycan şərti sərhəddə möhkəmlənib və bundan sonra da əsgərimizə qarşı törədilən istənilən təxribata cavabımız çox ağır olacaq. Odur ki, Paşinyan və onun ağası Makron növbəti təxribat planlarından yayınmaqla özlərini xilas etmiş olarlar".

Deputat onu da deyib ki, Makronun hakimiyyəti təklənib və Parisin Bakı əleyhinə bütün cəhdləri iflasa uğrayıb. Əvvəllər Makronun destruktiv və məntiqsiz hərəkətlərini dəstəkləyən Qərb artıq eyni siyasəti yürütmür. Bunu Münxen Təhlükəsizlik Konfransı da təsdiqlədi. Azərbaycanın regionda yaratdığı reallığı bir sıra dövlətlər, eləcə də Ermənistan və Fransa tərəfindən qəbul edilməlidir. Onların alternativ yolu yoxdur.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.8.